Если мы посмотрим на отношения между СССР и Турцией в целом во время Второй мировой войны, мы увидим, что СССР хотел, чтобы Турция оставалась нейтральной до тех пор, пока она не вступила в войну в 1941 году. Таким образом, отношения продолжались в положительном направлении. Такая ситуация продолжалась до тех пор, пока Советы не начали разгромить немецкую армию. После того, как на горизонте появился свет победы, СССР начал проводить новую политику, направленную на сохранение нейтралитета Турции. Особенно, в проблеме с Турецкими проливами стали наступать на Турцию. В такой обстановке отношения между СССР и Турцией обострились. Были даже моменты, когда все отношения доходили до разрыва. Основная причина этого в том, что СССР больше не нуждается в помощи Турции и хочет исключить Турцию из послевоенного мироустройства. В то же время политические конфликты между двумя странами выявили социальные и экономические проблемы. Это обострило отношения.

***Rəyçi: dos. V.R. Veysəlova***
***Ümumi tarix kafedrasının 10 sentyabr 2021-ci il tarixli iclasının 01 saylı protokolu.***
***Daxil olma tarixi 30 sentyabr 2021-ci il.***

**UOT:94**

# AZƏRBAYCANIN GƏDƏBƏY BÖLGƏSİNİN ERKƏN ORTA ƏSRLƏR TARİXİ – COĞRAFİYASI

***Mehdiyev Eldar***
***Gəncə Dövlət Universiteti***
***Eldarmeh1@gmail.com***

**Xülasə:** *Bu məqalədə Azərbaycanın Gədəbəy bölgəsinin erkən orta əsrlər tarixi - coğrafiyası tədqiq olunmuşdur. Gədəbəy rayonu Kiçik Qafqazın Şimal – şərq yamacını, Şəmkirçay, Zəyəmçay və Axıncıçay vadilərinin ərazisini əhatə edir. Bu ərazi qərbdən və cənub – qərbdən Kiçik Qafqaz dağ silsiləsi, cənubdan və cənub-şərqdən Şəmkirçay vadisi, şimaldan Zəyəmçay və Axıncıçay vadiləri, şərqdən Şəmkir rayonu ilə həmsərhəddir. Qeyd edilir ki, Gədəbəy bölgəsi erkən orta əsrlərdə də intensiv məskunlaşma zonalarından biri olmuşdur. M.Kalankatuklunun “Albaniya tarixi” əsərindəki bir sıra məlumatları müqayisə edərkən Gədəbəy bölgəsinin tarixi – coğrafi baxımdan Girdiman vilayəti ilə uyğunluq təşkil etdiyini və ən azından, bu vilayətin tərkib hissəsi olduğunu demək olar. Erkən orta əsrlərdə Girdiman dövlətinin böyük filiz mədənlərinin olduğu məlumdur. Gədəbəy bölgəsinin bir çox yerlərində tapılan qədim külçələr də bunu təsdiq edir. Ümumiyyətlə sadalanan faktlara əsasən Azərbaycanın Gədəbəy bölgəsinin erkən orta əsrlərdə Qafqaz Albaniyasının Girdiman vilayətinin tərkibində lokallaşdırılmasının mümkünlüyü qənaətinə gəlmək olar.*

**Açar sözlər:** Gədəbəyin tarixi – coğrafiyası, arxeologiya, Alban abidələri, Girdiman vilayəti, Kiçik Qafqaz, Şəmkirçay hövzəsi, Zəyəmçay, Axıncıçay

**Ключевые слова**: Историческая география Кедабека, археология, Албанские памятники, Гирдиманская область, Малый Кавказ, бассейн Шамкирчая, Заямчай, Ахинчичай

**Key words:** Historical geography of Gadabay, archeology, Albanian monuments, Girdiman region, Lesser Caucasus, Shamkirchay basin, Zayamchay, Akhinchichai

Gədəbəy bölgəsi Kiçik Qafqazın Şimal – şərq yamacını, Şəmkirçay, Zəyəmçay və Axıncıçay vadilərinin ərazisini əhatə edir. Bu ərazi qərbdən və cənub – qərbdən Kiçik Qafqaz dağ silsiləsi, cənubdan və cənub-şərqdən Şəmkirçay vadisi, şimaldan Zəyəmçay və Axıncıçay vadiləri, şərqdən Şəmkir rayonu ilə həmsərhəddir. Gədəbəy rayonunun ərazisi

Kiçik Qafqaz dağlarınınının orta və yüksək dağlıq qurşaqlarında yerləşir. Ərazi sahəsi Şahdağ silsiləsinin şimal yamacını, Başkənd-Dəstəfur çökəkliyinin və Şəmkir dağ massivinin bir hissəsini əhatə edir. Ən yüksək zirvələri Qoşabulaq (3549 m), Qocadağ (3317 m) hesab olunur. Rayon yay fəslində hava mülayim isti, qışda soyuq quraq, payızda yağmurlu iqlim üstündədir.

Tarixən yaşayış üçün yer seçimi müxtəlif amillərdən asılı olmuşdur. Bunların sırasında təsərrüfat, ticarət, təhlükəsizlik və digər məsələlər ilk növbədə nəzərə alınmışdır. Şübhəsiz, su təminatı bu amillər üçün əsas şərt olmuşdur. Gədəbəy rayonu ərazisində də mineral sular, qara və ağ mərmər yataqları var. Kolluq, enliyarpaqlı meşələr (palıd, fısdıq, vələs) dağlıq bölgələrdə seyrək meşələr, çəmənliklər geniş yer tutur.Bolsulu çay şəbəkəsi, əkinə yararlı münbit torpaqları, geniş sahəni əhatə edən otlaqları, zəngin bitki və heyvanat aləmi bu ərazidə ən geci e.ə. V minillikdən başlayaraq ilkin oturaq yaşayış məskənlərinin meydana gəlməsini fikirləşməyə əsas verir. Gədəbəy rayonu ərazisində çöl heyvanları – qayakeçisi, cüyür, qonur ayı, canavar; quşlardan – tetra, ular, kəklik, quzğunş, qartal və s. vardır. Çoxsaylı abidələrlə zəngin olan bu yerlər erkən orta əsrlərdə də intensiv məskunlaşma rayonu olmuşdur. Ərazidəki çoxsaylı yaşayış yerləri və nekropollar (Qalakənd, Göydəyə, Cənnət qalası və s.) buna sübutdur. Ərazisindəki əzəmətli qalalar (Qız qalası (Nəmrud qala), Koroğlu qalası), habelə digər müdafiə tikililəri (qlaçalar) erkən orta əsrlərdə Gədəbəy ərazisinin istər lokal, istərsə də regional xarakterli hərbi əməliyyatlarda fəal iştirakından xəbər verir. Müxləlif tiplərdən olan qəbir abidələri (küp qəbirlər, təknə qəbirlər, torpaq qəbirlər, sərdabə tipli qəbirlər, daş qutu qəbirlər və s.), qazıntılar zamanı tapılmış heykəlciklər (bütlər) və nəhayət, dini əhəmiyyətli obyektlər (Söyüdlü kəndi yaxınlığında, Şəmkir çayının sol sahilində Mahrasa məbədi, Həmşəvəng alban məbədi, Govdu (Qovdu) adlanan yerdə kilsə və s.) erkən orta əsrlərdə Gədəbəy əhalisinin mədəni səviyyəsinin, dini baxışlarının öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir. Arxeoloji qazıntılar, təbii dağıntılar, əkin işləri və tikinti-abadlıq işləri zamanı üzə çıxan yaşayış yerlərinin qalıqları, qəbir abidələri və rəngarəng çeşidli zəngin maddi mədəniyyət nümunələri bölgənin təsərrüfat həyatını, mədəni, iqtisadi və ticarət əlaqələrini daha dərindən və daha əhatəli şəkildə öyrənməyə imkan yaratmaqdadır.

Əsas meşəliklər dağlıq hissələrdə və çay vadilərində yayılmışdır. Çay vadilərində yerləşən meşəliklərin əksəriyyəti qırıldığı üçün indi həmin yerlər otlaq sahələrinə çevrilmişdir. Ümumiyyətlə, meşəliklərin qırılması haqqında arxeoloji ədəbiyyatda və orta əsr müəlliflərinin məlumatlarından məlum olur ki, onların qırılmasının əsas səbəbi bir tərəfdən əhalinin oturaq həyata keçməsi ilə əlaqədar ağacın yanacaq materialı kimi işlədilməsi, digər tərəfdən qədim dövrlərdə qəbir abidələrinin tikintisində meşə materialından geniş istifadə edilməsi olmuşdur. [1, 4]. Maldarlığın inkişafı da bitki qalıqlarının müəyyən qədər məhvinə və meşələrin seyrəlməsinə səbəb olmuşdur.

Hələ XIX əsrin ikinci yarısında Azərbaycanda olmuş Vemer fon Simens fusunkar təbiətinə və havasina valeh olduğu Gədəbəyi xatirələrində dəfələrlə “cənnət” adlandırır və Rudolf Virxovun araşdırmasına istinad edərək buranı ibtidai icma dövründən etibarən mis istehsal edən ən qədim dağ mədənlərindən biri olduğunu və Simenslərdən əvvəlki sahibləri tərəfındən bu mədənlərin bəsit üsullarla işlədildiyini qeyd edir: “Gədəbəy mis dağ-mədəni çox qədimdir; hətta iddia edilir ki, bura hələ ibtidai icma dövründə mis hasil edilmiş ən qədim dağ mədənlərindən biridir. Elə onun böyük Göyçə gölü və həmin gölün qərb sahillərindən başlayan Ağrı dağının - bir çoxları tərəfindən bəşəriyyətin beşiyi hesab edilən bir yerin - yaxınlığında yerləşməsi faktı buna dəlalət edir. Hətta bir əfsanəyə görə, bu dağ mədəninin meşə sahəsinə aid olan gözəl Şamxor çayı (Şəmkir çayı – M.E.) vadisi İncildə təsvir olunan cənnətin yerləşdiyi məkan olmuşdur. Hər halda mədən filizi dağının zirvəsini bəzəyən saysız-hesabsız qədim istehsl yerləri, habelə saf mis yataqları və nəhayət Gədəbəy ətrafındakı ibtidai

icma dövrünə aid qəbirstanlıqların olması - qeyd edim ki, bu məsələnin araşdırılmasına R. Virxov böyük maraq göstərib - burada dağ-mədən işinin qədimliyini təsdiq edir.”. [2, 21]

Qeyd etməliyik ki, indiki Gədəbəy bölgəsi erkən orta əsrlərdə Albaniyanın tərkibində olmuşdur. Erkən orta əsrlərdə Albaniya ərazisində mövcud olan ayrı-ayrı inzibati-siyasi vahidlər əsasən bir-birindən təbii sərhədlərlə ayrılırdı. Albaniyanın tarixi coğrafiyasına gəlincə, A.P.Novoseltsev təsdiq edir ki, ilkin orta əsrlər dövründə Albaniya, əsasən, müasir Azərbaycan Respublikasının, eləcə də Ermənistanın, Dağıstanın və Şərqi Gürcüstanın indiki ərazisini əhatə edirdi. [3, 186]. K.V.Trever isə yazır ki, “... V əsrdə Albaniya çarlığının hüdudları genişlənmişdi: Kürün sağ sahili də, Xunarakertdən tutmuş Araz çayının Kürə töküldüyü yerə qədər torpaqlar, o cümlədən qədim Şakaşen, Utik, Arsax vilayətləri və Paytakaran şəhərinin vilayəti onun ərazisinə daxil olmuşdu”. [4, 201].

M. Kalankatlı VII – VIII əsrlər alban torpaqları haqqında yazır: “Beləliklə, o, (Cavanşir – M.E.) İberiya sərhədlərindən tutmuş hun darvazalarına və Araz çayınaqədər ərazini əsl hökmdar kimi təkbaşına və çox gözəl idarə etmişdir” [5, 127]. Azərbaycanın VII – IX əsrlərdə cənub sərhədləri akademik Z.M.Bünyadov tərəfindən də müəyyənləşdirilmişdir. [6, 92]

Sağsahil Albaniyasındakı inzibati-siyasi vahidlər əsasən əyalətlərdən ibarət idi. Erkən orta əsrlərdə orada dörd əyalət olduğu bildirilir: Sünik, Arsax, Paytakaran və Uti. Onlar da ayrı-ayrı vilayətlərə bölünürdülər. Şərqdə Paytakaran, cənubda Arsax, şimalda Kür çayı, qərbdə isə İberiya ilə sərhədədək olan əraziləri əhatə edən Uti əyaləti Albaniyanın ən iri siyasi-inzibati vahidlərindən biri hesab olunurdu və Kürün sağ sahilində yerləşirdi. Şərqdə Paytakaranla, cənubda Arsaxla həmsərhəd idi. Şimalda Kür çayı ilə əhatə olunmuşdu, qərbdə isə Albaniya ilə İberiya sərhədlərinə qədər uzanmışdı. [7, 90]. Vurğulamaq lazımdır ki, müasir Gədəbəy bölgəsi də məhz bu sərhədlərin daxilindədir. Tarixi mənbələrdə Uti əyalətinin daha çox iki əsas vilayətindən bəhs olunur. Bunlar “Sakasena” (yunan mənbələrində) “Şakaşena” və “Girdiman” (irandilli mənbələrində) -“Qardman”, “Qırtman”, “Qaramanadzor” (erməni mənbələrində)-“Qardabani” (gürcü mənbələrində) kimi adı çəkilən vilayətlərindən ibarətdir. [8, 43]

Bəzi mənbələrdə Sisakan və ya Sisəcan kimi adı çəkilən Sünik əyalətinin Albaniyanın lap cənubunda, Araz çayının sol sahilində, Göyçə gölü ətrafı ərazilərdə olduğu bildirilir [7, 95; 9, 263] . M.Kalankatuklunun Girdiman vilayətində xristianlığın yayılması ilə bağlı qeydlərində yazdığı “Girdimanda hələ bütpərəstlikdən qalan var. Sünikdən keçərək Girdiman knyazı Xursun yanına gəlir...” [5, 33] ifadəsi maraq doğurur. Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, Sünik əyaləti ilə qonşuluqda yerləşdiyi güman olunan Girdiman vilayətinin məhz Gədəbəy bölgəsi ərazisində lokalizə edilməsi daha doğrudur. Sünik şimalda Arsax əyaləti, cənubi-qərbdə isə Ermənistanla həmsərhəd idi. F.C.Məmmədovanın fikrincə, “Sünik” adı İranmənşəli “Sisakan”dan daha qədimdir. Qədim mənbələrdə Sünik əyalətinin 12 vilayətdən ibarət olduğu bildirilir. Sünikin, ümumiyyətlə Albaniya ərazisi olduğu hətta, bir çox erməni tarixçiləri tərəfindən də təsdiq olunur. Məsələn, Sebeosun yazdığına görə, 571-ci ildə Sünik hakimi üsyan edərək ermənilərdən ayrılıb. O, İran şahı Xosrovdan xahiş edib ki, Sünik arxivlərini Dvindən Paytakarana köçürsün və onların üstündən erməni adı götürülsün. Və bu xahiş yerinə yetirilib [10, 18].

Erkən orta əsrlərdə Gədəbəy bölgəsinin (Girdiman vilayətinin) həmsərhəd olduğu tarixi ərazilərdən biri də Arsax əyalətidir. Albanşünas alimlərin fikrincə, bu əyalətin əraziləri Dağlıq Qarabağın və Mil düzünün bir hissəsini əhatə edirdi [10, 18] . İrili-xırdalı 12 vilayətdən ibarət olan Arsax əhalisini əsasən qarqarlar, utilər, hunlar, xəzərlər və barsillər təşkil edirdi [7, 94]. Girdiman Qafqaz Albaniyası ərazisinin tarixən formalaşan, antik və erkən orta əsrlərdə ölkənin hərbi-iqtisadi və dini-siyasi həyatında çox mühüm rol oynamış olan inzibati-siyasi vahidlərindən biri olub. Elə buna görə də Albaniya tarixi ilə bağlı yazılı mənbələrdə Girdiman vilayəti, Girdiman knyazlığı, Girdiman qalası, Girdiman məbədi və Girdiman şəhəri barədə məlumatlara tez-tez rast gəlinir.

Girdiman problemi hələlik milli tarixşünaslığımızda yetərincə öyrənilməmiş sahə olaraq qalmaqdadır. Ayrı-ayrı tədqiqatçıların bu problemlə bağlı müxtəlif vaxtlarda çap olunmuş mülahizə və fikirləri isə ötəri və ziddiyyətlidir. Bu da ondan irəli gəlib ki, Girdiman problemi barəsində yazanların əksəriyyəti orta əsr mənbələrinə, xüsusən də erməni-gürcü tarixçilərinin əsərlərinə istinad etməklə kifayətlənmişlər. Halbuki, ərazinin təbii-coğrafi şəraiti, toponimikası, əhalinin etnik tərkibi, dili, mədəniyyəti və xüsusilə də maddi-mədəniyyət abidələri ilə bağlı əsrlər boyu dəyişilməmiş qalan təbii-tarixi reallıqlar yetərincə nəzərə alınmadan Girdiman vilayətinin tarixi-coğrafiyası barədə fikir söyləmək əlbəttə, düzgün olmazdı. Elə akademik Z.M. Bünyadov da Girdiman vilayətinin lokalizəsinə dair məqaləsində bu amili xüsusi olaraq qeyd edib [11, 87]. Amma təəssüflər olsun ki, əvvəllər olduğu kimi, son onilliklərdə də Girdiman probleminin öyrənilməsində bu amillər, o cümlədən Azərbaycan ərazisində aparılmış olan genişmiqyaslı arxeoloji tədqiqatların nəticələri nəzərə alınmamışdır. Beləliklə, Girdiman problemi 60-70 il əvvəl olduğu kimi, bu gün də milli tarixşünaslığımızda çox ciddi polemika mövzusu olaraq qalmaqdadır.

Tədqiqatçılardan çoxu Girdiman vilayətinin indiki Şəmkir, Gədəbəy və Daşkəsən rayonları ərazisində, daha doğrusu, Şəmkirçayın şərq qolu olan Girdiman çayı hövzəsində olduğunu ehtimal edirlər. Xatırladaq ki, bu fikir milli tarixşünaslığımızda 1958-ci ildə nəşr olunmuş “Azərbaycan tarixi” kitabında da öz əksini tapmışdır. Orada deyilir: “VI əsrin sonu - VII əsrin əvvəllərində Mehranilər sülaləsinin idarə etdiyi Girdiman hökmdarlığının yüksəlişi nəzərə çarpırdı. Onun torpaqları ilk vaxtlar Şamxorçayın şərq qolu olan Girdiman çayı sahilini əhatə edirdi” [12, 113]. 60-cı illərin ortalarından etibarən bu fikir Girdiman ərazilərinin lokalizəsinə dair əsas ehtimal kimi əvvəlcə Z.M.Bünyadovun [11, 88], daha sonra digər tarixçilərin əsərlərində və nəhayət, Albaniya tarixinə dair ümumiləşdirici əsərlərdə də özünə yer alıb [13, 196].

Albaniyanın siyasi tarixinin və tarixi coğrafiyasının tədqiqatçısı F.C.Məmmədova Girdiman vilayəti ərazilərini lokalizə edərək belə yazır: “Girdiman Kürün sağ sahilində yerləşən siyasi-inzibati vahid kimi Uti əyalətinə daxil idi. Mənbələrdə bu vilayət Qardman (qədim erməni dilində), Girdiman (qədim İran dilində) və Qardabani (qədim gürcü dilində) adı ilə tanınırdı. Bu vilayətin lokallaşdırılması ilə bağlı üç nəzəriyyə mövcuddur. Bir çoxu onun Ağsu və Girdiman çayları rayonunda (İ.Əliyev, F.L.Osmanov), digərləri müasir Qazax rayonu ərazisində (S.T.Yeremyan), üçüncü qrup isə Şəmkirçay hövzəsi ətrafında və Gədəbəy rayonunda (Z.M.Bünyadov) yerləşdiyini iddia edirlər. Mənə belə gəlir ki, Girdiman vilayəti Albaniyanın şimal-qərbində, Kürün sağ sahilində, erməni və gürcü torpaqları ilə sərhəddə yerləşmişdi” [7, 92]. O, daha sonra yazır: “Girdiman Albaniya dövlətinin qərbində xüsusi strateji əhəmiyyət kəsb edirdi” [7, 93]. Deməli F.C.Məmmədovanın fikrincə, Mehranilər torpaqlarının hüdudlarını möhkəmlətdikcə Kürün sol sahilinə doğru (müasir İsmayıllı rayonunun ərazisi), Göyçay çayı - Girdiman hövzəsinə doğru irəliləyirdilər. Lakin Girdiman Albaniya dövlətinin qərbində xüsusi strateji əhəmiyyət kəsb edirdi.

F.C.Məmmədova Girdimanı eyni zamanda həm Albaniyanın qərbində, həm də şimal-qərbində lokalizə edir, dolayısı yolla Girdiman vilayətinin indiki Qazax, Şəmkir, Gədəbəy və Daşkəsən rayonları ərazisində, daha doğrusu, Şəmkirçayın şərq qolu olan Girdiman çayı hövzəsində olduğunu, həmçinin, Şirvan ərazisini də əhatə etməsi fikri ilə də razılaşır. Onun fikrincə, Mehranilər Albaniyada siyasi hakimiyyətə nəzarət etdikləri dövrdə Girdiman əraziləri şərqə doğru Ağsuçay-Girdimançay hövzəsinədək genişlənib.

F.C.Məmmədovaya görə Girdiman VI əsrdən (müəllifin kitabında səhv olaraq IV əsrdən yazılıb) “Albaniyanın birinci böyük knyazları” olan Mehranilər sülaləsinin irsi mülkü sayılırdı. Girdiman həm də silah və məişət əşyaları hazırlanmasında başlıca rol oynayan dəmir və mis mədənləri ilə məşhur olmuşdur. [7,91]

Tədqiqatçılardan, M.X.Şəriflinin [14, 91 - 93] və Q.Ə.Qeybullayevin [15, 186] yazdıqlarına görə, erkən orta əsrlər dövründə Albaniya ərazisində, eyni zamanda iki Girdiman vilayəti olub. Onlardan birinin Şirvan ərazisində, digərinin isə Albaniyanın qərbində, daha doğrusu indiki Şəmkir və Gədəbəy rayonları ərazisində olduğu ehtimal edilir. Mehranilərin ilk dəfə Şəmkir çayının şərq qolu sahillərinə gəldikləri və burada Qardman qalasını tikdirdikləri qeyd edilmişdir [14, 92].

Q.Ə.Qeybullayevin Girdiman tarixi ilə bağlı yazdığına görə, Gəncə-Qazax zonasını, VII əsrdən etibarən isə Qazax-Ağstafa zonasını əhatə edən Sakasena da Girdiman vilayəti və knyazlığının tərkibinə daxil idi, hansı ki, o yerlərdə albanlardan savayı, həmçinin, udinlər və saklar da yaşayırdı [15, 88 - 90].

Q.Ə.Qeybullayev yazır: "Erkən orta əsrlərdə Girdiman knyazlığı mövcud olub, hansı ki, hökmdar Cavanşirin hakimiyyəti dövründə o, bütün Albaniyanı əhatə edib. Girdiman qalası da orada yerləşib... Bu qala Şamxorçayın (Şəmkirçay – M.E.) qolu olan Girdiman çayının sol sahilində yerləşir, hansı ki, XIX əsrin sonlarınadək Qırtman adı ilə xarabalıqları mövcud olub" [15, 187].

Girdimanı Albaniyanın qərb ərazilərində lokalizə edən digər müəlliflərdən fərqli olaraq Q.Ə.Qeybullayev Girdiman vilayətinin şərq sərhədlərinin Kürəkçayadək uzandığını yazır. [15, 187]. K.V.Trever də Girdiman qalası və Girdiman vilayətinin Azərbaycanın qərb bölgəsində Qazax rayonu ərazisində lokalizə edilməsi ehtimalına üstünlük vermişdir [4, 234]. Qeyd etdiyimiz kimi bu fikir 1958-ci ildə nəşr olunan "Azərbaycan tarixi" kitabına da daxil edilmişdir. [12]. Girdiman vilayətinin Albaniyanın qərbində, indiki Şəmkir, Gədəbəy, Tovuz və Qazax rayonları ərazisində olduğunu ehtimal edənlərin xeyli qismi ilk mənbə olaraq M.Kalankatuklunun əsərinə istinad edib.

M.Kalankatuklunun "Albaniya tarixi" əsərində Girdiman vilayəti ilə bərabər, Girdiman şəhəri, Girdiman knyazlığı, Girdimandakı müqəddəs Allah evi və nəhayət, Girdiman yepiskopluğu barədə məlumatlara da rast gəlirik.

Sasani hökmdarı II Xosrov Mehranın getməsinin qarşısını almaq məqsədilə ona aşağıdakı məzmunda məktub göndərir: "Qardaşım, əgər mənimlə bir yerdə yaşamağı xoşlamırsansa, bu məktub sənə çatanda nə qədər yol getmisənsə, Albaniyada yaşamaq üçün özünə bir o qədər torpaq götür" [5, 101]. M.Kalankatuklunun yazdığına görə, bu məktub Mehrana "dərə-təpəli Girdiman vilayətində çatmışdır" və o da "bu yerlərin mülayim təbiətinə nəzər salaraq böyük məmnuniyyətlə orada şəhər salıb onu Mehrəvan adlandırdı" [5, 101].

M.Kalankatuklunun daha bir məlumatında yazır: "Xəzərlər qarət və talan məqsədilə Albaniyaya basqın etdilər… Cavanşir ordusunu götürüb Böyük Kür çayının o biri sahilinə keçdi və xəzərlərə hücum etdi... Qızğın döyüş vaxtı... atı büdrəyib onu yerə atdı. Lakin Cavanşir ölmədi, Allahın köməyilə o, ayağa qalxdı və duran kimi düşmənlərə hücum edib o günü böyük qələbə qazandı" [5, 129 - 130]. Qeyd edək ki,F.C.Məmmədova M.Kalankatuklunun məhz bu qeydlərinə istinad edərək Girdiman vilayətinin Kür çayının sağ sahilində olduğunu bildirib.

Tarixi mənbələrdən bəlli olduğu kimi, erkən orta əsrlər dövründə Albaniyanın əhalisi əsasən albanlar, utilər, kaspilər, girdimanlılar, tsavdeylər, leqlər, gellər, çilblər, qarqarlar və sair xalqlardan və etnik vahidlərdən ibarət olub [10, 25 -26].

M.Kalankatuklunun yazdığına görə, Uti, Tsvod və Qarqar knyazlıqları ilə bərabər, Girdiman əhalisi də Arran nəslindəndir [5, 17]. F.C.Məmmədova bu qeydə istinad edərək bildirir ki, Girdimanın yerli əhalisi başlanğıcdan avtoxton (yəni yerli) olmuş, V əsrdən sonrakı dövrlərdə isə burada İran ünsürləri güclənmişdir [7, 93]. Y.Yusifovun fikrincə isə "Girdiman vilayəti VI əsrin 70-ci illərində türkmənşəli sabir tayfaları tərəfindən məskunlaşmışdı... Çox güman ki, Mehranilər sülaləsinin əsasını sabirilər qoymuşlar, lakin sonralar sülalə iranmənşəli nəslə şamil edilmişdir..." [13, 109 -107].

Fikrimizcə unutmaq olmaz ki, erkən orta əsrlər dövründə də Azərbaycanın o, cümlədən də Albaniyanın və Girdiman vilayətinin əhalisinin böyük əksəriyyəti məhz türksoylu tayfalardan ibarət olmuşdur. Bunu göstərilən dövrə aid ərəb mənbələri də təsdiq etməkdədir. Məlum olduğu kimi 705-ci ildə Albaniya qəti olaraq ərəblər tərəfindən işğal edildi və ərəblərin tabeliyində olan Aran inzibati vahidinə qatıldı. IX əsrin ikinci yarısında Aran ərazisində ərəblərdən asılı olan knyazlıqlar sırasında Girdiman knyazı Ketrişin də adı qeyd edilmişdir. Ərəb sərkərdəsi Buğanın gəlişi haqqında məlumat verən erməni müəllifi Vardan (X əsr) yazır: "Buxa sünik knyazları Vasakı və qardaşı Aşotu, Xaçendə böyük knyaz Artnersexi, Girdiman knyazı Ketrişi, Uti əyalətində isə nəsli-əcdadları Sevko-Ordikin adını daşıyan Stepan Klianı tutdu...". [6, 194]

M.Xəlilovun yazdığına görə "...IX – X əsrlərdə Albaniya dövlətinin ərazisini yalnız Ereti (Kambisena), Şəki, Girdiman, Sakaşen (dağlıq hissəsi), habel Artsax vilayətləri təşkil edirdi." [16, 6]. Ümumiyyətlə götürdükdə isə Girdiman vilayətində yerli feodalların ən azı erkən orta əsrlərin sonuna kimi hakimiyyətdə qaldığını söyləmək olar. "Kitabi – Dədə Qorqud" boylarında xatırlanan qıpçaq məliklərinin məhz Azərbaycanın qərb bölgələrinin dağlıq ərazilərində yaşayan xristian albanlar olması fikri dövrümüzdə elmi dövriyyəyə daxil olan fikirlərdəndir. Gədəbəy bölgəsi ərazisindəki dağ, bulaq, çay, yamac, düzənlik adları demək olar ki, bütünlüklə türk mənşəli toponimlərdir. Daha doğrusu, onların xeyli qismi İran, bəziləri isə ərəb mənşəli toponimlərdir. Bu, o deməkdir ki, ərazinin türk mənşəli toponimləri əzəldir, İran və ərəb mənşəli toponimlər isə sonradan yaranıb.

Təsadüfi deyildir ki, elə indinin özündə də Gədəbəy rayonunun bəzi kəndlərinin sakinləri hətta qış düşəndə də öz mal-qarasını Şəmkirçay hövzəsinin yuxarı hissəsindəki, Kükürd, Göydəyə, Govdu (Qovdu) və s. adlanan ərazilərdə bəsləyirlər. Qazax, Şəmkir, Gədəbəy və s. rayonların sakinləri isə yay dövründə mal-qaranı Gədəbəy rayonu ərazisi ilə Kiçik Qafqaz silsiləsindəki yaylaqlara çıxarırlar.

Erkən orta əsrlərdə Şəmkirçay hövzəsinin Girdiman dövlətinin tərkibində olması faktını təsdiqləyən toponomik dəlillərə Şəmkir çayının şərq qolu olan Girdiman çayını, Gədəbəy ərazisindən Göyçəyə gedən Girdiman yolunu, Daşkəsənin Əmirvar kəndi yaxınlığındakı Qardiman talasını misal göstərmək olar. Tədqiqatçılar "Qovdağ" toponiminin "at çapılan", "at qovulan" dağ mənası bildirdiyini söyləyirlər [17, 46 -47]. Gədəbəy rayonu ərazisindəki Qalakənd çayı ilə Şəmkirçayın aralığındakı ərazıdə yerləşən Govdu (Qovdu) düzü də "at çapmaq", "at qovmaq " üçün əlverişli ərazidir.Qeyd edək ki, qədim intensiv yaşayış yerlərindən olan Göydəyə də, Cənnət qalası dab bu ərazidə yerləşir.

Geniş meşə zolaqlarına, otlaq və əkin sahələrinə malik olduğuna görə Gədəbəy ərazisi həmişə qonşu hakimlərin diqqətini cəlb etmişdir. Həm də erkən orta əsrlərdə Girdiman dövlətinin böyük filiz mədənlərinin olduğu məlumdur. Gədəbəy bölgəsinin bir çox yerlərində tapılan qədim külçələr də bunu təsdiq edir.

M.Kalankatuklunun "Albaniya tarixi" əsərindəki bir sıra məlumatları müqayisə edərkən Gədəbəy bölgəsinin tarixi – coğrafi baxımdan Girdiman vilayəti ilə uyğunluq təşkil etdiyini və ən azından, bu vilayətin tərkib hissəsi olduğunu danmaq mümkün deyildir. Məsələn M.Kalankatuklu yazır: "Xəzərlər qarət və talan məqsədilə Albaniyaya basqın etdilər… Cavanşir ordusunu götürüb Böyük Kür çayının o biri sahilinə keçdi və xəzərlərə hücum etdi... Qızğın döyüş vaxtı... atı büdrəyib onu yerə atdı. Lakin Cavanşir ölmədi, Allahın köməyilə o, ayağa qalxdı və duran kimi düşmənlərə hücum edib o günü böyük qələbə qazandı" [5, 129 -130]. "Sonra xəbər alır ki, Girdimanda hələ bütpərəstlərdən qalan var. Sünikdən keçərək Girdiman knyazı Xursun yanına gəlir. Onun köməyilə Maştos bütpərəstləri müstəqim yola döndərir və sonra Gürcüstan (İberiya) valisi Aşuşanın çağırışı ilə (Loriyə) gəlib orada da eyni işlə məşğul olur" [5, 33]. M.Kalankatuklu yazır: "Məhəmməd ibn Mərvan Çoladan qayıtdı və üç il ərzində su ilə əhatə olunmuş adada yerləşən Sevan qalasını mühasirə etdi və nəhayət, onu aldı və orada kimə rast gəldisə, hamını qılıncdan keçirtdi.

Oradan Ermәniyyәyә keçib o, Bizans vә ermәni qoşunlarını mәğlub etdi”. [5, 190]. Buradan belә bir nәticәyә gәlmәk mümkündür ki, Göyçә gölü vә әtraf әrazilәri Әrәb yürüşlәri dövründә dә Albaniya torpaqları olmuşdur, tarixi Әrmәniyyә әrazisi isә daha qәrbdә yerlәşirdi. Demәli, Sünik ilә hәmsәrhәdd olan Girdiman vilayәtinin müasir Gәdәbәy bölgәsinin yerlәşdiyi coğrafiyaya uyğunluğu bir daha öz tәsdiqinin tapır.

Ümumiyyәtlә Girdiman vilayәtini Albaniyanın İberiya vә Ermәnistanla hәmsәrhәd olduğu әrazidә lokalizә edәn müәlliflәrin demәk olar ki, әksәriyyәti ilkin mәnbәlәrә istinad etmişdir. Әksәr müәlliflәr nәticә etibarı ilә Girdiman vilayәtinin Albaniyanın qәrbindә, daha doğrusu Şәmkir, Gәdәbәy, Daşkәsәn, Tovuz vә Qazax rayonları әrazisindә olması ehtimalı üzәrindә dayanmışlar. Belәliklә, Girdiman qalasının da Şәmkirçay hövzәsindә olması ehtimalı öz aktuallığını saxlamaqdadır.

Göründüyü kimi, Girdiman әrazilәrinin lokalizәsi ilә bağlı Azәrbaycan tarixşünaslığında hәlә dә, mübahisәli elmi fikirlәr çoxdur. Bir konkret elmi fikrin olması üçün әlbәttә ki, hәr şeydәn öncә mövcud versiyaların lehinә vә әleyhinә olan arqumentlәr kompleks şәkildә nәzәrdәn keçirilmәlidir. Bu işdә daha ciddi uğurların әldә edilmәsi üçün isә, fikrimizcә Gәdәbәy bölgәsindә, xüsusilә dә Şәmkirçay hövzәsindә ciddi arxeoloji tәdqiqatların davamlı şәkildә aparılması mәqsәdәuyğundur.

***Әdәbiyyat***


1. Mәmmәdov A.M. Gәncәbasar IV-XIII әsrlәrdә (Tarixi-arxeoloji tәdqiqat).Bakı,Elm, 1993.
2. Verner fon Simens. Qafqaz sәyahәtlәri. Bakı: Turxan NPB, 2013, -144 s.
3. История СССР, 1985 № 1, 186.
4. Тревер К.В. Очерки по истории культуры Кавказской Албании (IV в. до н.э. - VII в. н.э.) М.-Л: Изд-во АН СССР, 1959.
5. Kalankatuklu Moisey Albaniya tarixi, Mxitar Qoş Alban salnamәsi (Müqәddimә, tәrcümә, qeyd vә şәrhlәr akademik Ziya Bünyadovundur). Bakı, Elm, 1993, 270 s.
6. Буниятов З.М. Азербайджан в VII – IX вв. Баку, 1965.
7. Mәmmәdova F.C. Azәrbaycanın (Albaniyanın) siyasi tarixi vә tarixi coğrafiyası (er. әv. III әsr-er. VIII әsri)-Bakı , Azәrnәşr, 1993. 262 sәh.
8. Q. C. Cәbiyev. Girdiman tarixi (IV-IX әsrlәr). Bakı, «Şәrq-Qәrb», 2010.
9. Мамедова Фарида. Кавказская Албания и албанцы. Баку: [Б.и.]. 2005.
10. Azәrbaycan tarixi: 7 cilddә, II c, Bakı: Elm, 2007.
11. Буниятов З.М. Албаника III. О локализасийи области Гардман. – Изв. АН Аз.ССР. Сер. Обшест. Наук, 1964, № 4, с. 87-92.
12. Azәrbaycan tarixi: 3 cilddә. I c, Bakı: Elm, 1958.
13. Azәrbaycan tarixi: Әn qәdim zamanlardan XX әsrәdәk. I c, Bakı: Azәrnәşr, 1994.
14. Şәrifli M.X. Eyni adlı orta әsr Azәrbaycan şәhәr vә qalaları // Azәrb.SSR EA Mәruzәlәri. 1962, XVIII c, № 3, s.89-93.
15. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку: Элм, 1991.
16. M.C.Xәlilov. Albaniyanın xristian abidәlәri (IV – X әsrlәr). Bakı, “Xәzәr Universiteti” nәşriyyatı, 2011, 344 sәh.


## ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ КЕДАБЕКСКОГО РАЙОНА АЗЕРБАЙДЖАНА ПЕРИОДА РАННЕГО СРЕДНЕВЕКОВОГО

***Мехтиев Эльдар***

***Резюме***

В этой статье рассматривается раннесредневековая историческая география Кедабекского района Азербайджана. Кедабекский район охватывает северо-восточный склон Малого Кавказа, территорию долин Шамкирчай, Заямчай и Ахинчичай. Этот регион граничит на западе и юго-западе с горным массивом Малый Кавказ, на юге и юго-востоке - с долиной Шамкирчай, на севере - с долинами Заямчай и Ахинчичай, а на востоке - с Шамкирским районом.

Отмечается, что Кедабекский район район был одной из зон интенсивного заселения в раннем средневековье. Сравнивая некоторые сведения из «Истории Албании» М. Каланкатуклу, можно сказать, что Кедабекская область в историко-географическом аспекте соответствует провинции Гирдиман и, по крайней мере, является неотъемлемой частью этой провинции. Известно, что в раннем средневековье Гирдиманское государство имело крупные рудные месторождения. Это подтверждают и древние слитки, найденные во многих частях Кедабекской области. В целом на основании вышеуказанных фактов можно сделать вывод, что Кедабекский район Азербайджана в раннем средневековье был локализован в пределах Гирдиманской провинции Кавказской Албании.

## HISTORICAL GEOGRAPHY OF THE EARLY MEDIEVAL PERIOD OF THE GADABAY REGION OF AZERBAIJAN

***Mehdiyev Eldar***

***Summary***

This article examines the early medieval historical geography of the Gadabay region of Azerbaijan. The Gadabay region covers the northeastern slope of the Lesser Caucasus, the territory of the Shamkirchay, Zayamchay and Akhinchichai valleys. This region is bordered in the west and southwest by the Lesser Caucasus mountain range, in the south and southeast by the Shamkirchay valley, in the north by the Zayamchay and Akhinchichai valleys, and in the east by the Shamkir region. It is noted that the Gadabay region was one of the zones of intensive settlement in the early Middle Ages. Comparing some information from the “History of Albania” M. Kalankatuklu, we can say that the Gadabay region in the historical and geographical aspect corresponds to the province of Girdiman and, at least, is an integral part of this province. It is known that in the early Middle Ages the state of Girdiman had large ore deposits. This is also confirmed by ancient ingots found in many parts of the Gadabay region. In general, on the basis of the above facts, it can be concluded that the Gedabek region of Azerbaijan in the early Middle Ages was localized within the Girdiman province of Caucasian Albania.

***Rəyçi dos. Sevinc Bağırova***
***Azərbaycan tarixi kafedrasının 06 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olduğu tarix 26 oktyabr 2021-ci il***

**UOT:94 (479.24.)**

## AZƏRBAYCANDA TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜ DÖYÜŞÇÜLƏRİNƏ AİD KURQANLAR

***Mehdiyeva Həqiqət Şaadət qızı***
***Bakı Dövlət Universitetinin Qazax filialı***
***hegiqet.mehdiyeva.91@mail.ru***

**Xülasə:** *Məqalədə qəbir abidəsi olan kurqandan bəhs edilir. Azərbaycanın müxtəlif bölgələrində olan kurqanlar quruluşu və avadanlığının zənginliyinə görə fərqlənirdi.*

*Xüsusilə döyüşçüyə məxsus kurqanların avadanlığı bir qədər də zəngin olurdu, çünki bu zaman kurqana hərbçilərlə yanaşı at skeletləri də qoyulurdu. Belə kurqanlara Dovşanlı, Üçtəpə, II Plovdağ, Borsunlu və s. kurqanlarını misal göstərmək olar.*

**Açar sözlər:** Kurqan, neolit, eneolit, tunc, dəmir, Plovdağ, xəncər, qılınc, Üçtəpə.

**Ключевые слова:** Курган, неолит, енеолит, бронза, железо, Пловдаг, крестик, меч, Учтепе.

**Key words:** Kurgan, neolith, eneolite, bronze, iron, Plovdagh, dagger, sword, Uchtepe.

İbtidai icma dövründə mövcud olan dəfn adətlərindən biri olan kurqanlar öz quruluşuna görə xüsusilə seçilirdi. Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da yaşayış yerlərindən aparılan qazıntılar zamanı kurqan qəbirləri arxeoloqlar tərəfindən öyrənilmişdir.